# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121; 2006, № 1, maddə 59; 2009, № 1, maddə 32, № 10, maddə 846; 2010, № 1, maddə 49; 2012, № 2, maddə 183; 2013, № 6, maddə 738; 2014, № 1, maddə 69, № 2, maddə 201, № 7, maddə 925; 2016, № 4, maddə 772, № 5, maddə 955; 2017, № 3, maddə 478; 2018, № 3, maddə 624, № 8, maddə 1817, № 10, maddə 2174; 2020, № 6, maddə 788; 2021, № 3, maddə 301, № 9, maddə 1084, № 11, maddələr 1256, 1271; 2022, № 4, maddələr 402, 403, № 12, maddə 1533; 2023, № 8 (II kitab), maddə 1268; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 401 nömrəli və 4 noyabr tarixli 405 nömrəli qərarları) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.3-1-ci bənd əlavə edilsin:

"1.3-1. Müstəqil enerji istehsalçıları ilə istehlakçılar arasında elektrik enerjisinin alqı-satqısına dair müqavilələr bu Qaydalara əlavə edilmiş birtipli müqavilələr nəzərə alınmaqla fərqli formada bağlanıla bilər.".

2. 12.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“12.4. Müstəqil enerji istehsalçısı istehsal etdiyi elektrik enerjisini istehlakçıya, dövlət elektroenergetika müəssisəsinə və (və ya) enerjitəchizatı müəssisəsinə sata bilər. Müstəqil enerji istehsalçısı ilə dövlət elektroenergetika müəssisəsi və (və ya) enerjitəchizatı müəssisəsi arasında elektrik enerjisinin alqı-satqı müqaviləsi bu Qaydaların 5 nömrəli əlavəsinə uyğun bağlanılır.

Müstəqil enerji istehsalçısı ona məxsus elektrik şəbəkəsi, həmçinin dövlət elektroenergetika müəssisəsi və (və ya) enerjitəchizatı müəssisəsi ilə ötürmə və ya paylama qiymətlərini razılaşdırmaqla ötürücü və (və ya) paylayıcı şəbəkə vasitəsilə istehlakçıları elektrik enerjisi ilə təchiz edir. Müstəqil enerji istehsalçısı ilə istehlakçı arasında elektrik enerjisinin alqı-satqısı onlar arasında bağlanılmış müqaviləyə uyğun tənzimlənir.”.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 dekabr 2023-cü il

№ 490